*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*"06" dekabr 2011-ci il tarixli*
*Q-01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta haqlarının məbləğinin hesablanması

# Q A Y D A S I

**Bakı 2011**

Bu Qayda «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.11-ci yarımbəndinin icrası məqsədilə hazırlanmışdır və sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta haqlarının məbləğinin hesablanması ilə bağlı məsələləri tənzimləyir.

## 1. Sığorta haqqının hesablanması

1.1. Nəqliyyat vasitəsində olan bir sərnişin yeri üzrə illik sığorta haqqı məbləğləri nəqliyyat vasitəsinin növündən asılı olaraq aşağıdakı qaydada müəyyən edilir:

1.1.1. hava nəqliyyatı vasitələri üçün – 14,0 manat;

1.1.2. su nəqliyyatı vasitələri üçün – 5,0 manat;

1.1.3. dəmiryolu nəqliyyatı vasitələri üçün – 3,0 manat;

1.1.4. avtomobil nəqliyyatı vasitələri üçün – 6,0 manat;

1.2. Nəqliyyat vasitəsi üçün ümumi sığorta haqqı aşağıdakı düsturla hesablanır:

Ümumi sığorta haqqı = NVSYS × BSYSH

*burada:*

NVSYS – nəqliyyat vasitəsindəki sərnişin yerlərinin sayı;

BSYSH – bu Qaydanın 1.1-ci bəndində nəzərdə tutulmuş müvafiq sığorta haqqı məbləği.